# BOLŞEVİZMƏ SƏDAQƏTLİ KOMMUNİSTİN ACI TALEYİ



*Cəlal QASIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

"Pravda" qəzeti 8 mart 1927-ci ildə Böyükağa Talıblının "Erkək Tükəzban" əsərini sovet qadınlarının ictimai fəaliyyətini əks etdirən aktual bir mövzu kimi çap edir və bu hekayə haqqında yazırdı: "...Gənc Azərbaycan kommunist yazıçısı Talıblı adı çətin tərcümə olunan və bizim "Mujik baba" yaxud "Marqeritovski"yə müvafiq gələn hekayə yazır. Bu hekayədə Talıblı incə bir yumorla yenicə sədr seçilmiş yaşlı bir Azərbaycan qadınının ilk dəfə kənd sovetinə gəlməsini təsvir edir. O da əksəriyyət təşkil edən bütün başqa bacıları kimi savadsız idi. Buna görə də heç bir qanunu oxuya bilmirdi. Lakin o, gənc katibdən qanun məcəlləsində ona neçə gün həbs etmək ixtiyarı verilməsi və icbari işə göndərmək hüququ olub-olmamasını göstərməsini xahiş edir. Katib ona hər şeyi izah etdikdən sonra isə o, işdən qaralmış dırnaqları ilə özünə lazım olan maddələrin altını cızır, sonra isə dərhal kəndin bütün varlı adamlarını həbs etdirib, onları arx qazmağa göndərir. Bununla da o, tez bir zamanda kənddə həm öz şəxsi nüfuzunu, həm də yeni hakimiyyətin hörmətini qaldırır. Talıblının təsvir etdiyi Azərbaycan qadını uydurma olmayıb, bu günün sevindirici bir amilidir" ("Pravda" qəzeti. 8 mart 1927).

"Erkək Tükəzban"ın silahı nə idi? Əhalini işə cəlb etmək üçün həbs etmək, qorxu və vahimə altında saxlamaq. Fikrimizcə, bu erkək Tükəzbanın deyil, sovet hökumətinin öz silahı idi. Sosializm cəmiyyətini bəyənməyən, ona boyun əyməyən hər bir şəxs həbs edilirdi. Əslində aktual olan da bu idi. İndiyə qədər Azərbaycan ədəbiyyatı tarixində "Erkək Tükəzban" haqqında xeyli yazılmış, lakin məlum səbəblərdən Erkək Tükəzban həmişə müsbət qəhrəman kimi tədqiq edilmişdir. Erkək Tükəzban kimdir və o, sovet ədəbiyyatının yaddaşında hansı əməlləri ilə qalmışdır?

Sovet ədəbiyyatında müsbət qəhrəman, "bacarığı və mərd hərəkətləri ilə kişilərdən seçilməyən", "iyirminci illər nəsrimizdə yaranmış ilk mübariz qadın" kimi təbliğ və təqdir olunan Erkək Tükəzbanın kimliyi barədə müəllif özü aşağıdakıları söyləyirdi: "Gözünü açandan bəri atasından və qardaşlarından kötək qalmamışdı yeməsin, onunla belə yenə özünə qoyulmazdı, hayanda bir adam yığıncağı görsə idi, Tükəzban gərək ora burnunu soxa idi. Hayanda bir səs-küy olsa idi, Tükəzban çərşabın uclarını belinə çarım-çarpaz düyümləyib, oraya yüyürərdi. Kişi oldu, arvad oldu, Tükəzban üçün təfavütü yox idi. Utanmaq bilməzdi, qızarmaq bilməzdi. Yasda, toyda, hamamda, məsciddə, müxtəsər, "hər yanda aşdı, orda başdı", xeyir-şər Tükəzbansız keçməzdi. Qohum-əqrəba tamam "biabır" olmuşdu. Kənd arasında söz qalmayırdı Tükəzbanın dalınca danışmasınlar. Axır atası təngə-zinhara gəlib, bu "həyasızın başını bir təhər əkdi" (Böyükağa Talıblı. Seçilmiş əsərləri. Bakı, 1983, səh. 33-34).

Erkək Tükəzban ailə qurduqdan sonra nəinki bu adətlərini tərgidir, əksinə atasından və qardaşından yediyi kötəkləri xaraktercə sakit ərindən görmədiyindən daha da sərbəstləşir. Erkək Tükəzbanın hərəkətləri kəndin ağsaqqal və ağbirçəklərinin də xoşuna gəlmir. Hətta iş o yerə çatır ki, ağbirçəklər onu öz aralarına buraxmırlar. Şuralaşmadan sonra Tükəzbana başa salınır ki, indi artıq onun "cilovu öz əlindədir", kişilərlə bərabər hüquqa malikdir.

Qadınlar qurultayından qayıtdıqdan sonra heç bir yazı-pozu bilməyən Tükəzban kənd şurasının sədri vəzifəsinə irəli çəkilir. Erkək Tükəzbanın əsl siması da burada açılır. İndiyədək atasından və qardaşından qamçı və kötək yeyən Tükəzban qamçı vuran Tükəzbana çevrilir. Əhali dəyənəklə idarə edən Xudayar bəydən ("Danabaş kəndinin əhvalatları") qurtarıb Erkək Tükəzbanın və onun "çubuq hakimiyyətinin" səltənəti ilə rastlaşır. Bu fakt sovet ədəbiyyatşünaslığında nə qədər alqışlansa da, bu günün işığında bir həqiqəti də aydın ifadə edir, daha doğrusu, həmin cəmiyyətin idarə üsulunun total mahiyyətini açıb göstərir. 20-ci illərdə addımını sovet qanunlarından kənara atanların aqibəti, həqiqətən də, belə olmuşdur. Həmin cəmiyyətdə tərbiyələndirmə metodu heç bir humanizmə sığmayan həbs etmə, konslager, güllələmə, sürgün, mənəvi işgəncələr vermə metodu olmuşdur. Belə ki, yeni cəmiyyət də, Erkək Tükəzban da əhalini işlətmək və öz qanunlarını həyata keçirmək üçün zora, işgəncəyə üstünlük verir. Yalnız bircə dəfə Qadınlar qurultayına gedən və dərhal da onun idarə üsulunu mənimsəyən Erkək Tükəzban kəndin mollasından tutmuş ən yazıq adamına qədər həbsxanaya salır. Cəzalandırma olmadan heç bir iş görə bilmir. Bu gün bu hekayənin ən böyük qiyməti də Erkək Tükəzbanın kimlərlə necə mübarizə aparmasında yox, həmin cəmiyyətin idarə üsulunun zor, irtica və inkvizisiya və məhv etmək olduğunu bütün çılpaqlığı ilə açıb göstərməsindədir.



Böyükağa Talıblının özü də bu silahın qurbanı oldu. Belə ki, "Erkək Tükəzban"ın müəllifi də Xalq Daxili İşlər Komissarlığının (XDİK) həbsxanalarına gətirildi. Erkək Tükəzbanın (yəni bu cəmiyyəti quranların) böyük əksəriyyəti həmin həbsxanada idi. Lakin bu həbsxana müəllifin təsvir etdiyi həbsxanaya oxşamırdı. Burada həbslər beş günlük deyildi və onlara nəzarəti erkək tükəzbanlar deyil, qriqoryanlar, markaryanlar, avetikyanlar, qalstyanlar, seyranyanlar... edirdi. Bir sözlə burada erkəklikdən əlamət görünmürdü. Hər yerdə əzab və işgəncə. Həm də buradakıların bir çoxu bolşeviklərə xidmət etdiklərinə görə cəza çəkirdi. Yəni onların içində bolşeviklər də az deyildi. Təəssüf ki, belələrindən biri də 1918-ci ildən bolşeviklər partiyasının üzvü olan, 1936-cı il dekabrın 25-də isə Azərbaycan K(b)P Voroşilov Rayon Partiya Komitəsi tərəfindən "aşkar edilməmiş milli-təmayülçü kimi" ittiham edilərək partiya sıralarından xaric edilən Böyükağa Mirqasım oğlu Talıblı idi. Bir kommunistin partiya sıralarından xaric edilməsi olduqca ciddi hadisə idi və bu hüquq mühafizə orqahlarının diqqətini dərhal cəlb edir və həmin şəxs nəzarətə götürülürdü. NKVD əməkdaşları B.Talıblı barəsində təxminən bir il material topladıqdan sonra - 1937-ci il yanvarın 8-də Dövlət Təhlükəsizlik İdarəsinin (DTİ) 2-ci şöbə 4-cü bölməsinin rəisi baş leytenant Atakişiyev Azərbaycan XDİK DTİ-nin rəisi Gerasimova aşağıdakı məzmunda arayış təqdim etmişdir: "1897-ci ildə Səlyanda anadan olmuş, Azərbaycan SSR Xalq Torpaq Komissarlığının keçmiş əməkdaşı, Yazıçılar İttifaqının, Azərbaycan MİK-in, Bakı Sovetinin üzvü Böyükağa Talıblı əksinqilabi millətçi meyillərinə görə partiya sıralarından xaric edilmişdir. DTİ-dəki materiallardan görünür ki, Böyükağa Talıblı partiya sıralarında ikən ikiüzlü rol oynamış, partiya və Sovet hökumətinin ünvanına, onun yeritdiyi milli siyasətə qarşı əksinqilabi millətçi əhvali-ruhiyyəli çıxışlar etmişdir. Göstərilənlərə əsasən Böyükağa Talıblının həbs olunub Azərbaycan SSR CM-nin 72-ci maddəsi üzrə məsuliyyətə cəlb edilməsini zəruri sayıram" (Talıblı Böyükağa Mirqasım oğlunun istintaq qovluğu. № - PR-27076).

Tanınmış ictimai xadim və yazıçı Böyükağa Talıblının həbsi ilə əlaqədar 9 yanvar 1937-ci ildə evində axtarış aparılması, eləcə də həbsi barədə 1858 saylı order imzalandı və həmin gün o həbs edildi. Həbsindən bir gün sonra onu dindirməyə cəlb etdilər və verilən ilk sual belə oldu:

**Sual:** İstintaqa məlumdur ki, siz gizli müsavatçı təşkilatın üzvüsünüz. Bunu boynunuza alırsınızmı?

**Cavab:** Qəti şəkildə rədd edirəm. Mən həmişə müsavatçılara qarşı mübarizə aparmışam və aparıram.

**Sual:** Müsavatçılardan şəxsən kimləri tanıyırsınız?.

**Cavab:** Dramaturq Cəfər Cabbarlını, Qlavlitin rəisi İbrahim Eminbəylini, BXMŞ müdiri Hüseynovu, şair Mikayıl Müşfiqi, kürəkənim Əbüsalam Səmədovu və Rəhim Vəkilovu. Onlar həmişə deyirdilər ki, Azərbaycan çar dövründə olduğu kimi, 1920-ci ildən sonra da asılı müstəmləkə vəziyyətində qalmışdır.

XDİK orqanlarının müstəntiqlərini daha çox əsəbiləşdirən mühakimə olunanların əksinqilabçıların adlarını çəkməkdən imtina etmələri olurdu. Bir çox hallarda bu suala onlar istədikləri cavabı ala bilmədikdə istintaqı dayandırır və müttəhimi fiziki işgəncələr verməklə həmin sualın cavabına hazırlayırdılar. Böyükağa Talıblıya verilmiş növbəti sualda o, müsavatçı kimi C.Cabbarlının, Qlavlitin rəisi İbrahim Eminbəylinin, M.Müşfiqin, R.Vəkilovun, hətta kürəkəni Əbüsalam Səmədovun, Bakı xalq maarif şöbəsinin müdiri Hüseynovun adlarını çəkir. Lakin bunlar NKVD müstəntiqlərini razı salmadıqlarından bu məsələnin üzərində israrla dayanırdılar. Məqsəd daha çox ziyalını istintaqa cəlb edib məhv etmək idi.

**23 yanvar 1937-ci il dindirməsinə fikir verək**

**Sual:** İstintaq sizdən tələb edir ki, tanıdığınız bütün müsavatçıların adlarını söyləyəsiniz.

**Cavab:** Adlarını çəkdiklərimdən başqa heç kəsi tanımıram.

**Sual:** Düz danışmırsınız. Məmməd Həsən Baharlını tanıyırsınızmı?

**Cavab:** Bəli, onunla 1925-1926-cı illərdən tanışam. Lakin müsavatçı olduğunu bilmirəm.

**Sual:** Müsavatçılardan daha kimləri tanıyırsınız?

**Cavab:** Heç kimi tanımıram.

**Sual:** İstintaq sizə inanmır və tanıdığınız bütün müsavatçıların adlarını söyləməyi tələb edir.

**Cavab:** Yenə də bildirirəm ki, şəxsən müsavatçılardan daha heç kəsi tanımıram və heç kəsin də adını çəkə bilmərəm.

**Sual:** İstintaq bir daha əmin olur ki, siz səmimi deyilsiniz və tanıdığınız müsavatçıların adlarını söyləmək istəmirsiniz. Sizə təklif edirik ki, bilə-bilə yalan ifadələr verməkdən qaçın və ancaq düz danışın!

**Cavab:** Mən əvvəl verdiyim cavabların üstündə dururam. Müsavatçılardan daha heç kəs mənə məlum deyil.

**Cavab:** Bir halda ki, siz inad edirsiniz və düz danışmaq istəmirsiniz, istintaq sizi ifşa etməyi qərara alır! Seyid Hüseyn Sadıqovu tanıyırsınızmı?

**Cavab:** Sadıqov Yazıçılar İttifaqının üzvüdür. Onu 1936-cı ildən tanıyıram. Lakin onun müsavatçı olduğu mənə məlum deyil.

**Cavab:** Məmməd Əmin Rəsulzadənin kürəkəni kimi də tanımırdınız?

**Cavab:** Tanımırdım. Bu barədə ancaq Süleyman Rüstəmdən eşitmişdim.

**Sual:** Müsavatçı Musaxanlı ilə tanışsınızmı?

**Cavab:** Xeyr.

**Sual:** Əhməd Cavadı müsavatçı kimi tanıyırdınızmı?

**Cavab:** Əksinqilabi müsavatçı ideologiyanın tərəfdarı olan şair kimi ayrı-ayrı əsərlərindən mənə məlum idi.

**Sual:** Əksinqilabi əhvali-ruhiyyəli elementlərdən kimləri tanıyırsınız?

**Cavab:** Hüseyn Cavidi. Başqalarını tanımıram.

**Sual:** Düz danışmırsınız! Pepinov Sizə tanışdırmı?

**Cavab:** Onun haqqında heç nə bilmirəm!

**Sual:** Sultan Məcid Qənizadəni tanıyırsınızmı?

**Cavab:** Bu familiyanı birinci dəfə eşidirəm.

**Sual:** Əksinqilabi əhvali-ruhiyyəli şəxslərdən sizə daha kimlər məlumdur.

**Cavab:** Daha heç kəsi tanımıram.

**Sual:** İstintaq müddətində müntəzəm olaraq siz əksinqilabçı elementlərin adlarını söyləməkdən çəkinirsiniz. Mübarizəni dayandırmağı və doğru-düzgün ifadələr verməyi təklif edirik. İstintaqa məlumdur ki, siz digər şəxsləri də tanıyırsınız. Onlar haqqında istintaqa doğru-düzgün ifadələr verməyi tələb edirik.

**Cavab:** Əksinqilabi əhvali-ruhiyyəli şəxslərdən daha heç kəsi tanımıram.

**...Sual:** Siz milli təmayülçüsünüz, bunları etiraf edirsinizmi?

**Cavab:** Mən heç vaxt milli təmayülçü olmamışam.

Bu dindirmədəki bir məqama da diqqət yetirilməlidir. B.Talıblı müsavatçı və ya milli təmayülçü kimi heç kimin adını çəkmir. Müstəntiq özü sən filankəsi tanıyırsanmı sualı ilə ondan lazımi cavabları alır. Müttəhim tanıyıram deyirsə bu, adı çəkilən şəxsin həbsi üçün yetərli əsas olurdu.

***(Davamı var)***